**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV adına TARİX İNSTİTUTU**

***Əlyazması hüququnda***

**YAQUT FƏRAHİM QIZI ƏMİROVA**

# AZƏRBAYCAN SSR-TÜRKİYƏ MÜNASİBƏTLƏRİ (XX ƏSRIN 20-CI ILLƏRI)

İxtisas: 5503.02 – «Vətən tarixi»

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

# A V T O R E F E R A T I

**BAKI – 2017**

*Dissertasiya Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Azərbaycanın müasir tarixi" şöbəsində yerinə yetirilmişdir*

**Elmi rəhbər:**
t.ü.e.d., professor **A.Ə.Məmmədov**

**Rəsmi opponentlər:**
tarix üzrə elmlər doktoru, prof. **H.C.Əlibəyli**
tarix üzrə fəlsəfə doktoru, dos. **S.F.Ruintən**

**Aparıcı təşkilat:** **Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Tarix" kafedrası**

Müdafiə Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutu nəzdində 5502.01 – "Ümumi tarix", 5503.02 – "Vətən tarixi", 5507.01 – "Beynəlxalq münasibətlər tarixi" və 5509.01 – "Tarixşünaslıq, mənbəşünaslıq və tarixi tədqiqat üsulları" ixtisasları üzrə tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının «__28___» _____04______2017-ci il tarixli iclasında, saat______ keçiriləcəkdir

**Ünvan:** AZ1143, Azərbaycan Respublikası, Bakı ş., H.Cavid pr., 115

Dissertasiya ilə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar

Avtoreferat "_____ "__________2017-cı il tarixdə göndərilmişdir

D.01.161 Dissertasiya Şurasının
elmi katibi tarix üzrə fəlsəfə doktoru **C.Ə.Bəhramov**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Müstəqil Azərbaycan Respublikasının həllinə çalışdığı mühüm məsələlərdən biri də beynəlxalq münasibətlərin fəal subyekti olaraq öz dövlətçilik və milli maraqlarını hərtərəfli təmin etməkdən ibarətdir. Hazırda Azərbaycan beynəlxalq birliyin bütün üzvləri ilə əməkdaşlıq və tərəfdaşlıq prinsiplərinə söykənən qarşılıqlı münasibətləri uğurla inkişaf etdirir. Bu sahədə Azərbaycan dövləti müasir ümumbəşəri dəyərlərlə yanaşı tarixən mövcud olmuş milli dövlətçilik ənənələrinə, qonşu xalqlar və ölkələrlə münasibətlərdə topladığı zəngin təcrübəyə istinad edir. Hazırda bu təcrübənin hərtərəfli elmi təhlili və tədqiqi ictimai elmlər qarşısında duran aktual vəzifələrdən biridir. Xüsusən dost və qardaş türk xalqı, Türkiyə Cümhuriyyəti ilə əlaqələrin öyrənilməsi bu gün dünyada və regionda cərəyan edən mürəkkəb proseslər kontekstində mühüm əhəmiyyət kəsb edir.

Yaşadığımız dövrün mühümlüyünü xatırladan Ulu öndər onun vacibliyini alimlərimizə dəfələrlə xatırladıb. H.Ə.Əliyev 1997-ci il yanvarın 31-də Azərbaycan EA-nın aparıcı alimləri ilə görüşündəki nitqində də tarixin müstəqil şəkildə yenidən yazılmasının əhəmiyyətindən danışaraq qeyd edirdi ki, «70-ci illərdə mən dəfələrlə Elmlər Akademiyasının qarşısında vəzifə qoymuşdum ki, Azərbaycanın tarixi yazılmalıdır... Alimlərimizin, tarixçilərimizin günahından yox, o vaxtkı ümumi ideologiyanın təsiri, yaxud bu ideologiyanın tələbi ilə yazılan tarix də, şübhəsiz ki, indi bizi qane edə bilməz”.[1] Bu baxımdan sözsüz ki, Azərbaycanın tarixi keçmişinin, xüsusilə də qardaş Türkiyə Cümhuriyyəti ilə münasibətlərinin yeni milli elmi konsepsiya əsasında təfəkkür süzgəcindən keçirilməsi və öyrənilməsi çox vacib və zəruridir.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra region dövlətlərlə, o cümlədən Türkiyə Cümhuriyyəti ilə tarixi əlaqələrinin müxtəlif aspektlərinin araşdırılması, bu əlaqələrin obyektiv mənzərəsinin yaradılması və ibrət dərslərinin götürülməsi mühüm siyasi-elmi vəzifələrdəndir.

Bu gün «bir millətin iki dövləti» olan Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında münasibətlər həyatın bütün sahələrini əhatə etməklə qarşılıqlı etimada, səmərəliliyə və strateji tərəfdaşlığa əsaslanır. İki müstəqil dövlət arasında regional və beynəlxalq əməkdaşlığın genişləndirilməsi, transmilli layihələrin həyata keçirilməsi sahəsində də sıx əlaqələr mövcuddur.

Azərbaycan və Türkiyə dövlətləri getdikcə qloballaşan dünyada həm öz milli dövlətçilik maraqlarını, həm də strateji müttəfiqinin maraqlarını təmin edilməsi baxımından unikal təcrübəyə malikdirlər.

Problemin aktuallığını müəyyənləşdirən digər amil hazırda hər iki ölkənin üzləşdiyi təhlükəyə və çağırışlara birgə cavab vermək zərurəti ilə bağlıdır. Tarixin müxtəlif dövrlərində Azərbaycan və türk xalqlarına qarşı insanlığa sığmayan vəhşiliklər həyata keçirmiş erməni millətçiliyi bu gün özünün antitürk siyasətini yeni forma və metodlarla davam etdirməkdədir. Azərbaycanın əzəli torpaqlarında özünə dövlət quran, 20% ərazisini işğal edən Ermənistan, Türkiyəyə qarşı da

[1] Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab. Bakı: 1998, s. 367

ərazi iddiaları irəli sürür, qondarma "erməni genosidi"ni dünyada tanıtdırmaqla öz məqsədlərinə nail olmağa çalışır.

Erməni şovinist-millətçi dairələrinin və onların havadarlarının əl atdıqları ən iyrənc vasitələrdən biri də tarixi saxtalaşdırmaq yolu ilə dünyanı öz yalanlarına inandırmaqdan ibarətdir. Onlar tarixi faktları saxtalaşdıraraq Azərbaycanla Türkiyə arasında ziddiyyətlər yaratmaqdan çəkinmirlər. Bu cəhdlərin qarşısını almağın ən vacib şərtlərindən biri də Azərbaycanın Türkiyə ilə əlaqələri tarixinin obyektiv araşdırılmasıdır.

Azərbaycanın ilk milli dövlətinin – Xalq Cümhuriyyətinin təşəkkül tapmasında, dövlət təsisatlarının, ordusunun yaradılmasında, ərazi bütövlüyünün təmin olunmasında, maarif və mədəniyyətinin inkişaf etdirilməsində Osmanlı imperiyası böyük xidmətlər göstərmişdir. Məhz 1918-1920-ci illərdə Azərbaycan və Türkiyə arasında müstəqil dövlətlərarası münasibətlər yaranaraq inkişaf etmişdir.

Azərbaycan xalqı öz müstəqil dövlətinə qovuşduqdan sonra Türkiyə ilə münasibətlərdə yeni mərhələ başlandı ki, bu mərhələ iki yaxın dövlət arasında strateji müttəfiqlik münasibətləri ilə xarakterizə olunur.

Göründüyü kimi, Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əlaqələrin zəngin keçmişi vardır. Bu əlaqələrin öyrənilməsi istiqamətində son illərdə hər iki ölkədə geniş tədqiqatlar aparılsa da, iki yaxın xalq və ölkə arasında mövcud olan münasibətlərin tarixi təcrübəsini ilkin mənbələri cəlb etməklə, mövzuya dair ədəbiyyatı hərtərəfli öyrənməklə daha dərindən araşdırılmasına ehtiyac duyulur. Xüsusən qarşılıqlı münasibətlərdə mühüm dövrü təşkil edən XX əsrin 20-ci illəri bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Tədqiqatın mövzu dairəsi 1920-1929-cu illəri əhatə edir. XX əsrin 20-ci illəri həm hadisələrin zənginliyi və mürəkkəbliyi, həm də gələcək münasibətlərə təsiri baxımından Azərbaycan-Türkiyə əlaqələri tarixində mühüm yer tutur. Bu onillik dövrü Türkiyə-Azərbaycan-Rusiya əlaqələri kontekstində iki müstəqil mərhələyə ayırmaq olar: I mərhələ 1920-1922-ci illəri əhatə edir ki, bu mərhələdə Azərbaycan sovet respublikasına çevrilsə də, öz formal müstəqilliyini saxlamış, Türkiyə ilə siyasi-diplomatik münasibətlərdə olmuşdur.

1922-ci ilin əvvəllərindən başlayaraq sovet respublikalarının formal müstəqilliyinin məhdudlaşdırılması, onların xarici siyasətinin, siyasi diplomatik fəaliyyətlərinin əllərindən alınması ilə müşayiət olunurdu. 1922-ci ilin sonlarında ZSFSR və SSRİ-nin yaradılması ilə respublikaların xarici siyasət sahəsində funksiyaları tamamilə ittifaq dövlətinə verildi. Bütün bunlar Azərbaycanın Türkiyə ilə əlaqələrinə öz təsirini göstərdi.

Azərbaycanla Türkiyə arasında əlaqələrin 1923-1929-cu illəri əhatə edən ikinci mərhələsi siyasi diplomatik əlaqələrin aradan qaldırılması ilə səciyyələnir.

**Mövzunun öyrənilmə səviyyəsi**. 1920-1929-cu illərdə Azərbaycan-Türkiyə əlaqələrini araşdırarkən müxtəlif ölkələrdə problemə həsr edilmiş ədəbiyyatdan istifadə olunmuşdur. Müvafiq ədəbiyyat əhatə etdiyi dövrə, problemə, nəşr olunduğu ölkələrə görə təsnifləşdirilə bilər.

Sovet tarixşünaslığının tərkib hissəsi olan Azərbaycan sovet tarixşünaslığında 1920-1922-ci illərdə Azərbaycan-Türkiyə əlaqələrinin öyrənilməsi əsas istiqa-

mətlərindən biri hesab edilə bilər. Mövcud rejimin siyasi, ideoloji tələblərinə cavab verən bu tədqiqatlar dövrün tarixi həqiqətlərini açıb göstərməyə deyil, bolşeviklərin yeritdiyi siyasi xəttin düzgünlüyünü sübut etmək, sovet Rusiyasının Türkiyə azadlıq hərəkatına qardaşlıq köməyini qabartmaq məqsədi daşıyır. Bu əsərlərdə bir qayda olaraq Türkiyə-Sovet yardımları şişirdilir, təbliğat xarakteri daşıyır və hadisələr birtərəfli sovet ideologiyasının ehkamlarına uyğun işıqlandırılır.

Bütövlükdə tədqiqat obyekti kimi 1920-ci illərdə Azərbaycan-Türkiyə əlaqələrini seçmiş müəlliflərin əksəriyyətinin əsərlərində əsas diqqət 1920-1922-ci illərə yetirilmişdir. Məhz bu dövrdə həm Türkiyə, həm də Sovet Rusiyası beynəlxalq izolyasiyadan çıxmaq, xarici təcavüzə qarşı mübarizə aparmaq üçün bir-birilə sıx əlaqələr qurmuş, bu əlaqələr hətta müttəfiqlik səviyyəsinə qədər qalxmışdır. Bu baxımdan sovet tarixşünaslığı diqqəti cəlb edir. Sovet tarixçilərindən İ.Əlibəyov, Q.Hüseynov, M.Sofiyev, Ə.Sumbatzadə və B.Hüseynov, A.Şamsutdinov, Y.Bağırov, H.Əliyev, T.Dadaşovun, D.F.Yeremeyevin, M.Kərimovun, S.Kuznetsovanın, A.Millerin, V.Moiseyev və Y.Rozaliyevin, A.Xeyfetsin[1] və

[1] Керимов М. Борьба советских республик за прочный мир и добрососедские отношения с Турцией (1920-1922 гг.). Москва: 1948; Миллер А.Ф. Очерки новейшей истории Турции. Москва-Ленинград: 1948; Yenə onun. Актуальные проблемы новой и новейшей истории Турции. Москва: 1983; Yenə onun.Из истории советско-турецких отношений//Турция. Актуальные проблемы новой и новейшей истории. Москва: 1983, с.221-234; Моисеев И., Розалиев Е. К истории советско-турецких отношений. Москва: 1958; Кузнецова С. Установление советско-турецких отношений. Москва: 1961; Шамсутдинов А. Турецкая Республика. Краткий очерк истории Турецкой Республики. Москва:1962; Yenə onun. Национально-освободительная борьба в Турции 1918-1923 гг. Москва:1966; Шамсутдинов А., Алиев Г.Влияние культурной революции в Советском Азербайджане на Турцию// Материалы научной конференции «Национальное и интернациональное в советской культуре». Москва: 1972, с.68-74; Хейфец А.Н. Советская Россия и сопредельные страны Востока в годы гражданской войны (1918-1920). Москва: 1964; Yenə onun. Советская дипломатия и народы Востока 1921-1927. Москва: 1968; Багиров Ю.А. Из истории советско-турецких отношений в 1920-1922 гг. (По материалам Азерб. ССР). Баку: 1965; Yenə onun. Борьба турецкого народа против империалистической интервенции и султаната, за республику (1917-1924). Автореф.дисс. док. ист. наук. Баку: 1968; Yenə onun. Bir karagün dostluğu // Kurtuluş savaşı yollarında Türkiye-Sovyetler birliği ilişkileri. İstanbul: 2000; Hüseynov Q. Atatürk dövründə Türkiyənin xarici siyasətinə dair. Bakı: 1970; Sofiyev M.M. Türkiyənin ən yeni tarixi. Bakı: 1973; yenə onun. Türkiyənin milli azadlıq hərəkatına Azərbaycanın yardımı // Türkiyə Cümhuriyyəti – 70. Elmi-praktik konfransın materialları. Bakı: 1993, s.61-63; Дадашев Т. Великий Октябрь и установление советско-турецких культурных связей (20-30-ые гг.)// Известия АН Азерб. ССР, серия история, философия, право, 1977, №3, с.60-69; Yenə onun. Предпосылки установления культурных связей между Советским Азербайджаном и Турецкой Республикой (20-ые годы) // Советский Азербайджан и Зарубежный Восток. Баку:1980, с.57-72; Sumbatzadə Ə.S., Hüseynov B.M. Sovet Azərbaycanı və xarici Şərq. Bakı: 1980; Əlibəyov İ. İnkişaf etməkdə olan Şərq öl-

başqalarının əsərlərində Sovet Rusiyası ilə Kamalçı Türkiyə arasında münasibətlərin təşəkkül tapması, iki tərəf arasında baş tutan danışıqlar, Moskva, Qars müqavilələrinin bağlanması prosesi geniş işıqlandırılmışdır. Bu əsərlər Rusiya-Türkiyə münasibətlərinin ümumi mənzərəsini öyrənmək baxımından əhəmiyyətlidir. Həmin əsərlərdə Azərbaycan-Türkiyə münasibətləri bolşeviklərin Cənubi Qafqaz siyasəti kontekstində araşdırılır.

Azərbaycan müstəqillik əldə etdikdən sonra milli tariximizin 1920-1922-ci illərini əhatə edən bir sıra mühüm tədqiqat işləri işıq üzü görmüşdür. Azərbaycanın müstəqillik illərində bu mövzuda yazılmış ilk əsərlərdən biri də M.Qasımlının «Azərbaycan-Türkiyə diplomatik-siyasi münasibətləri (aprel 1920-ci il – dekabr 1922-ci il) kitabıdır.[1] Əsasən Azərbaycan arxivlərindəki materiallara və sovet dövründə nəşr edilmiş toplulara istinad olunan kitabda 20-ci illərin əvvəllərində Türkiyəni Rusiya ilə yaxınlaşdıran amillər, Azərbaycan müstəqilliyinin itirilməsində Türkiyə amili, əsirlərin dəyişdirilməsi məsələsi, 1921-ci il Moskva və Qars müqavilələrinin bağlanması prosesində Azərbaycanın vəziyyəti, Azərbaycan-Türkiyə münasibətlərinə Rusiyanın təsiri və s. məsələlər öz əksini tapmışdır.

İ.Musayevin monoqrafiyasında[2] Naxçıvan bölgəsi ətrafında 20-ci illərin əvvəllərində baş verən proseslər təhlil edilir, Türkiyənin bu bölgənin erməni işğalından xilas olunmasında rolu göstərilir.

V.Qafarovun “Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi” adlı kitabında da 1920-1922-ci illərdə Sovet-türk münasibətlərindən bəhs edilir.[3] Türkiyə-Rusiya münasibətlərində Ermənistan-Azərbaycan ərazi münaqişəsi məsələsi İ.Niftəliyevin monoqrafiyasında geniş yer almışdır və ətraflı təhlil olunmuşdur.[4] C.Həsənlinin XX əsrin 20-30-cu illərində Azərbaycanın xarici siyasətini əhatə edən əsəri tədqiq edilən mövzunun araşdırılması baxımından çox dəyərlidir[5].

Tədqiq olunan mövzunun digər aspektini 1923-1929-cu illərdə Azərbaycan-Türkiyə əlaqələri təşkil edir. Azərbaycan MEA-nın yaranması və Azərbaycanın elmi ziyalı kadrlarının hazırlanması tarixini tədqiq edən professorlar T.H.Musayeva və A.Ə.Məmmədovun birgə yazdıqları monoqrafiyada 1926-cı il fevralın

---

kələrinin inkişafına SSRİ-nin yardımı // Böyük Oktyabr və xarici Şərq. Bakı: 1987, s 22-50; Yenə onun. Türkiyə Respublikasının tarixi və iqtisadi inkişaf mərhələləri Azərbaycan şərqşünaslarının tədqiqatlarında // Bazar iqtisadiyyatı və menecment sahəsində Azərbaycan-Türkiyə seminarının materialları. Bakı: 1991, s 1-13; Еремеев Д.Е. Становление республиканской Турции (1918-1939-гг). Москва: 2004;

[1] Qasımlı M. Azərbaycan-Türkiyə diplomatik-siyasi münasibətləri (aprel 1920-ci il – dekabr 1922-ci il). Bakı: 1998

[2] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti 1917-1921-ci illər. Bakı: 1998.

[3] Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922). Bakı: 2011.

[4] Нифталиев И.В. Азербайджанская ССР в экпансионистских планах армян (20-е годы XX века). Баку: 2010.

[5] Həsənli C. Sovet dövründə Azərbaycanın xarici siyasəti. 1920-1939. Bakı: 2012.

26-martın 6-da Bakıda Türk xalqlarının qurultayının keçirilməsindən, türkiyəli alimlərin, o cümlədən, M.F.Köprülüzadə və Əli bəy Hüseynzadənin qurultayda fəal iştirak etmələrindən danışılır. Türk alimlərinin bu qurultayda fəal iştirak etmələri t.ü.e.d., prof., Dövlət Mükafatı laureatı T.H.Musayevanın "Azərbaycan mədəniyyəti əsrlərin dönəmində (XX əsrin 20-30-cu illəri)" adlı monoqrafiyasında daha ətraflı işıqlandırılır.[1] Yeri gəlmişkən, t.ü.f.d. A.S.Rüstəmovanın "Azərbaycan SSR-də elmi-sahə kitabxanalarının yaranması və fəaliyyəti (1920–iyun 1941-ci illər)" adlı monoqrafiyasında da Bakıda Türkoloji qurultayın keçirilməsi və türkiyəli alimlərin burada fəal iştirak etmələrindən bəhs olunur.[2]

1920-1922-ci illərdə Azərbaycan-Türkiyə siyasi-diplomatik münasibətləri ilə müqayisədə adı çəkilən problemə dair tədqiqatların sayı az olsa da, bu mövzuya həm sovet, həm Türkiyə, həm də müasir Azərbaycan tarixşünaslığında bir sıra kitab və məqalələr həsr edilmişdir.

Azərbaycanın Türkiyə ilə iqtisadi və mədəni əlaqələrinə dair materiallara A.Avşar, Ə.Bije, T.Dadaşov, İ.Əlibəyov, İ.İsmayılov, T.Paşaoğlu, M.Sofiyev, F.Şabanov, H.Əliyev, M.Kərimov[3] və b. əsərlərində rast gəlinir. Bu əsərlərin ək-

---

[1] Мусаева Т.А., Мамедов А.А. На путях создания Национальной Академии Наук и формирования кадров научной интеллигенции Азербайджана. Баку: 2005; Мусаева Т.А. Культура Азербайджана на рубеже эпох (20-30-ые годы XX столетия). Баку: 2015.

[2] Rüstəmova A.S. Azərbaycan SSR-də elmi-sahə kitabxanalarının yaranması və fəaliyyəti (1920– iyun 1941-ci illər). Bakı: 2014.

[3] Керимов М.А. К истории экономических отношений между Закавказскими советскими республиками и Турцией // Краткое сообщение Института Востоковедения, XXVI, 1958, с. 83-93; Bije Ə. Sovet-Türkiyə iqtisadi münasibətləri (1923-1939). Bakı: 1965; Yenə onun. Türkiyənin xarici ticarəti və xarici ticarət siyasəti (1920-1980). Bakı: 1987; Yenə onun. Türkiyənin müstəqil gömrük siyasəti uğrunda mübarizəsi (20-ci illər) // Türkiyə Cümhuriyyəti – 70, Bakı, 1993, s.16-17; Алиев Г. Влияние культурной революции в Советском Азербайджане на Турцию // Материалы научной конференции «Национальное и интернациональное в советской культуре». Москва: 1972, с.68-74; Изучение экономики стран Ближнего и Среднего Востока в Азербайджане // Известия АН СССР, Серия экономики, 1975, №2, с.19-25; Şabanov F., Dadaşov T. Sovet Azərbaycanı ilə Türkiyə Respublikası arasında mədəni əlaqələrin başlanmasının ilkin şərtləri (20-ci illər) // Azərbaycan və xarici Şərq: Məqalələr məcmuəsi. Bakı: 1980, s.57-71; Yenə onun. Предпосылки установления культурных связей между Советским Азербайджаном и Турецкой Республикой (20-ые годы), с.57-72; Əlibəyov İ. İnkişaf etməkdə olan Şərq ölkələrinin inkişafına SSRİ-nin yardımı, s 22-50; Türkiyə Respublikasının tarixi və iqtisadi inkişaf mərhələləri Azərbaycan şərqşünaslarının tədqiqatlarında // Bazar iqtisadiyyatı və menecment sahəsində Azərbaycan-Türkiyə seminarının materialları. Bakı: 1991, s.1-13; Dadaşov T. Atatürk və Türkiyədə mədəni inqilab // Türkiyə Cümhuriyyəti - 70. Türkiyə Respublikasının 70 illiyinə həsr edilmiş elmi-praktik konfransın materialları. Bakı: 1993, s.25-27; Yenə onun. Türkiyədə mədəni dəyişikliklərin ilkin sosial-siyasi şərtləri (1920-30-cu illər) // Şərqin aktual problemləri: tarix və müasirlik, Bakı, 1993, s.93-96; Paşaoğlu T. Atatürk və Türkiyədə mədəni in-

səriyyəti SSRİ-Türkiyə münasibətlərinə, RSFSR-in Türkiyə ilə əlaqələrinə həsr edilsə də, orada Azərbaycanla bağlı çoxlu faktiki materiallar vardır. Mövzunun tədqiqatı zamanı Azərbaycan müəlliflərindən N.Cəfərov, N.Əhmədli, F.Əhmədova, M.Fətəliyev, İ.Hacıyev, H.Həsənov, A.İsgəndərov, Ş.Qurbanov, A.Əbilova və Ə.Nəzərlinin əsərlərindən də istifadə edilmişdir[1]

Son illərdə Azərbaycanda nəşr olunmuş bir sıra məqalə və kitablarda[2] Türkiyə ilə mədəni, təhsil, idman, ədəbiyyat əlaqələrinin tarixinə dair materiallar mövcuddur.

XX əsrin 20-ci illərində Azərbaycan-Türkiyə münasibətlərinin mühüm aspektini Türkiyədə fəaliyyət göstərən Azərbaycan mühacirləri ilə bağlı məsələlər təşkil edir. Məlum olduğu kimi, Azərbaycan Cümhuriyyətinin süqutundan sonra Azərbaycan mühacirlərinin bir çox nümayəndələri qardaş Türkiyədə məskunlaşmış və geniş fəaliyyət göstərmişlər. Onların fəaliyyəti Sovet dövlətinin etirazına səbəb olmuş və sovet hökuməti Türkiyədən azərbaycanlı mühacirlərin fəaliyyətinin qadağan edilməsini tələb etmişdir. Bu məsələlər C.Həsənlinin, M.Qasımlının adı çəkilən kitablarında, X.İbrahimlinin, A.Tahirlinin monoqrafiyalarında[3] geniş

---

qilab (1920-30-cu illər). Bakı: 1993; Avşar A. Türkiyənin istiqlal mücadiləsində Azərbaycan türkləri. Bakı: 2007; İsmayılov İ. Azərbaycan-Türkiyə mədəni əlaqələri XX əsrdə. Bakı: 2000; Yenə onun. Türk dünyası XX əsrdə. Bakı: 2009;

[1] Əhmədova F. Nəriman Nərimanov – İdeal və gerçəklik. Bakı: 1998; İsmayılov İ. Azərbaycan-Türkiyə mədəni əlaqələri XX əsrdə. Bakı: 2000; Qurbanov Ş. Atatürk və Nərimanov münasibətləri // Dirçəliş-XXI əsr, 2002, №51, s.102-114; Yenə onun. Atatürk və Nərimanov. Bakı: 2003; Əhmədli N. Qars müqaviləsi. Bakı: 2004; yenə onun. Mustafa Kamal Atatürk. Bakı: 2002; İsgəndərov A. Azərbaycan Xalq Cümhuriyyəti 1918-1920. Bakı: 2003; Абилова А. Ибрагим Абилов – Азербайджанский друг Ататюрка. Баку: 2003; Cəfərov N. Azərbaycan atatürkçülüyü yaxud Heydər Əliyev Atatürk haqqında. Bakı: 2004, №3, s.11-22; Həsənov H. Nəriman Nərimanov – milli təmayüllü kommunist. Bakı: 2004; Yenə onun. Nəriman Nərimanov. Milli dövlətçilik baxışları və fəaliyyəti. Bakı: 2005; Fətəliyev M. Türkiyə, Yunanıstan və böyük dövlətlər Birinci dünya müharibəsi ərəfəsində və illərində. Bakı: 2005; Yenə onun. Yunanıstan, Türkiyə və böyük dövlətlər 1919-1922-ci illərdə. Bakı: 2005; Hacıyev İ., Həbibbəyli İ. Mustafa Kamal Atatürk və Naxçıvan. Bakı: 2007; Назарли А. Народное образование в Азербайджанской Республике (1918-1920). Баку: 2008; Mehmet A., Cəfərov N. Atatürkün Azərbaycan siyasəti. Bakı: 2008; Hacıyev İ. Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan. Naxçıvan: 2010; Yenə onun. Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri. Naxçıvan: 2012.

[2] Bije Ə. Sovet-Türkiyə iqtisadi münasibətləri (1923-1939). Bakı:1965; Yenə onun. Türkiyənin xarici ticarəti və xarici ticarət siyasəti (1920-1980). Bakı: 1987; Xəlilov B. Türkologiya: Türkiyə və türklər. XX əsrin 20-ci illərinin müstəvisində // Filologiya məsələlərinə dair tematik toplu. Bakı: 2001, №1-2, s.161-166; Qasımova S., Osmanov B. 1920-ci illər Azərbaycan mətbuatında türk ədəbiyyatının tədqiqinə dair materiallar. Bakı: 2003.

[3] Tahirli A. Azərbaycan mühacirəti. Bakı:2001; Yenə onun Azərbaycan mühacirət mətbuatı, I hissə. Bakı: 2002; Yenə onun. Azərbaycan mühacirət mətbuatı, II hissə. Bakı:

təhlil edilmişdir.

Tədqiqatda türk müəlliflərinin əsərlərindən də geniş istifadə edilmişdir. 1920-1922-ci illər Azərbaycan-Türkiyə münasibətləri türk tarixşünaslığında xüsusi yer tutan məsələlərdəndir. Türk tarixçilərindən V.Ünüvar, H.Adıgüzel, Ş.Aydemir, B.Başak, C.Benhur, T.Bıyıkoğlu, A.Çayçı, O.Çelik, Ö.Çolak, M.Gönlübol və C.Sarın, K.Gurun, M.Kemal, E.Meram, K.Özalp, M.Öztürk, M.Perinçek, M.Saray, Ü.Sarınay, A.Sayılqan, B.Şimşir, F.Temuçin, S.Yerasimos[1] və b.-nın əsərlərində türk tarixinə, M.K.Atatürkün fəaliyyətinə, eləcə də istiqlal mücadiləsi tarixinə həsr edilmiş kitablarda[2] əsasən Türkiyə arxiv sənədlərinə istinad edilərək

---

2003; yenə onun. Rus əsarətinə və bolşevizmə qarşı ideoloji mücadilə tarixindən // Azərbaycan tarixi muzeyi. Bakı: 2004. Yenə onun. Azərbaycan mühacirət mətbuatında publisistika. (1921-1991). Bakı: 2005; İbrahimli X. Azərbaycanın mühacirəti tarixi. Bakı: 2012.

[1] Bıyıkoğlu T. Atatürk Anadoluda. Ankara: 1959; Sayılqan A. Solun 94 yılı. 1871-1965. Başlanğıçtan Günümüze Türkiyede Sosyalist-Komunist Hareketler. Ankara: 1968; Meram E.K. Türk-Rus ilişkileri tarihi. İstanbul: 1969; Yerasimos S. Türk-Sovyet ilişkileri Ekim Devriminden «Milli mücadile»ye. İstanbul: 1979; Kemal M.Doğu sorunu ve milli mücadelenin dış politikası. İstanbul: 1979; Türkiye Böyük Millet Meclisinin Gizli Celese Zabıtları. Devre: I. C.II. Ankara: 1985; Özalp K.Milli Mücadile. 1919-1922. I-II cild. Ankara: 1985,1989; Saray M. Atatürkün Sovyet politikası, Ankara: 1985; Yenə onun. Ermenistan ve türk-ermeni ilişkileri. İstanbul: 2006; Sarınay Ü. Milli mücadilede türk sovyet münasibetleri, c.1, sayı 1. Samsun: 19 Mayıs Universitesi Egitim fakultesi dergisi, 1986; Gürün K. Türkiye-Sovyet ilişkileri (1920-1953). Ankara: 1991; Benhur C. Stalin dönemi Türk-Sovyet ilişkileri, Selcuk Universiteti, Türkiyat araşdırmaları dergisi. Ankara: 1991; Şimşir. B.N. Atatürk ve yabancı devlet başkanları. Cilt 1. Ankara: 1993; Gönlübol M., Sar C. Atatürk ve Türkiyenin dış politikası. 1919-1938. Ankara: 1997; Başak B. Taksimde Anıtlaşan Türk-Sovet dostluğu. Aydınlık, 23 temmuz 2000; Çayçı A. Türk-ermeni ilişkilerinde gerçekler. Ankara: 2000; Çelik O. Atatürk ve Kafkasiya. Ankara: 2000; Temuçin F.Ertan. Lozan konferansında Türk-Sovet ilişkileri. Türk yurdu. Cilt. 20, sayı 151, mart 2000; Aydemir Ş.S. Suyu arayan adam. İstanbul: 2005; Öztürk M. Atatürk döneminde Türkiyenin Kafkasiya politikası. Ankara: 2005; Ünüvar V. Naxçıvan: təlatüm və burulğanlar (1920-1921). Naxçıvan: 2006; Adıgüzel H. Atatürk, Narimanov ve Kurtuluş Savaşımız. 2. Baskı. İstanbul: 2006.

[2] Belen F. Asgeri, siyasal ve sosyal yönleriyle türk qurtuluş savaşı. Ankara: 1973; Atatürk Mustafa Kamal. Nutuk. Ankara: 1987; Atatürkün milli dış politikası. I-II cild, Ankara: Armaoğlu F. 20 yüzyıl siyasi tarihi. 1914-1980. I-II cild, İstanbul: 1996; Ünal T. Türk siyasi tarihi. İstanbul: 1998; Bozdağ İ.Atatürkün Avrasya devleti. Ankara: 1999; Belgelerle türk tarihi dergisi dün, bu gün, yarın. Agustos 2001,sayı 55; Belgelerle türk tarihi dergisi dün, bu gün, yarın. Mart 2002,sayı 62; Ersevinc M., Akkuş T., Kesirikoğlu. Türk devrim tarihi. İstanbul: 2004; Kocatürk U. Atatürk çizgisinde geçmişden geleceye. Atatürk ve yakın tarihimize ilişkin görüşmeler, araşdırmalar, belgeler. Ankara: 2005; Koç Y.,Koç A.Tarihi gerçekler işığında belgelerle Mustafa Kamal Atatürk. Ankara: 2005; Mantran R. Osmanlı imperatorluğu tarihi II duraklamadan yıkılışa.İstanbul:2007; Öner K.Nutuk.Qazi Mustafa Kamal Atatürk. 6.Baskı. Ankara:2007.

(M.Perinçekin kitabı[1] istisna olmaqla – Y.Ə.) Sovet-Türkiyə əlaqələri, Cənubi Qafqazda gedən proseslər fonunda Azərbaycanın yeri və rolu geniş işıqlandırılır. Bu əsərlər sırasında Azərbaycan-Türkiyə əlaqələrinə xüsusi həsr edilmiş kitablar da mövcuddur. Buraya birinci növbədə B.Aslan, C.Azer, A.Bayat, N.Keykurun, B.Şimşir və b.[2] əsərlərini aid etmək olar.

Azərbaycan-Türkiyə əlaqələri ilə bağlı türk müəlliflərinin öz tədqiqatlarında, bir qayda olaraq, yalnız Türkiyə arxiv sənədlərinə və nəşr olunmuş sənədlər toplularına istinad edilir. Bu əsərlərdə məlumatsızlıq üzündən Azərbaycan tarixini təhrif edən yanaşmalara rast gəlinir. Bəzi türk müəlliflərinin əsərlərində Türkiyənin Cənubi Qafqaz siyasətini mədh edən məqamlar da az deyildir. Bununla belə, Türkiyədə nəşr olunmuş əsərlər Azərbaycan-Türkiyə əlaqələrini öyrənmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Türk müəllifi İ.Atnurun 1999-cu ildə Naxçıvanda nəşr edilmiş kitabında[3] 1918-1921-ci illərdə Türkiyənin Naxçıvanı və ətraf bölgələri erməni təcavüzündən qorumaq istiqamətində həyata keçirdiyi siyasət, Naxçıvanda sovet-türk hərbi əlaqələri ətraflı işıqlandırılır. Əgər İ.Musayev öz tədqiqatlarında əsasən Azərbaycan arxivlərinin sənədlərindən istifadə etmişdisə, İ.Atnurun müraciət etdiyi mənbələr, bir qayda olaraq, Türkiyə arxiv sənədləridir.

Mövzunun tədqiqi zamanı Rusiya tarixçiləri R.Dirsexan, D.Yeremeyev, A.Jevaxov, A.İoffe və A.Şirokoradın,[4] qərb müəlliflərindən P.Dumont[5] və A.Monqonun[6] dövrün müxtəlif problemlərinə, görkəmli şəxsiyyətlərin fəaliyyətinə həsr olunmuş kitab və məqalələrinə də müraciət edilmişdir. Mövzunun tədqiqi zamanı memuar ədəbiyyatından da səmərəli şəkildə istifadə edilmişdir. Dövrün tanınmış siyasi və dövlət xadimlərindən Xəlil paşanın, Kazım Qarabəkir paşanın,

---

[1] Perincek M. Atatürkün Sovyetlerle görüşmeleri (Sovyet Arşiv Belgeleriyle). İstanbul: 2005

[2] Keykurun N. Azerbaycan istiklal mücadelesinden hatıralar. 1905-1920. İstanbul: 1964; Bayat A.H. Azerbaycanın yigit evladı Ali bey Hüseynzade. Türkiyede yayınladığı eserleri. İstanbul: 1992; Aslan B.Türkiye-Azerbaycan ilişkileri ve İbrahim Ebilov (1920-1923).İstanbul: 2004; Azer C. Babadan Oğula Güney Kafkasiya. Türkiye-Güney Kafkasiya ilişkileri. Istanbul: 2011; Şimşir B.N. Azerbaycan. Azerbycanın Yeniden Doğuş Sürecinde Türkiye-Azerbaycan ilişkileri. Ankara: 2011; yenə onun. Azerbaycanın istiklal mücadelesi. Ankara: 2013

[3] Atnur İ. Muxtariyyət ərəfəsində Naxçıvan. Naxçıvan: 1999

[4] Иоффе А.Е. Международные связи советской науки, техники и культуры. 1917-1932. Москва: 1975; Еремеев Д.Е Становление республиканской Турции (1918-1939-гг). Москва: 2004; Жевахов А. Кемаль Ататюрк. Москва: 2008; Широкорад А. Турция. Пять веков противостояния. Москва: 2009; Дирсехан Р. Русские, Ататюрк и рождение Турецкой Республики: в зеркале советской прессы 20-ых годов. Москва: 2012;

[5] Paul Dumont.Mustafa Kemal invente la Turquie moderne.1919-1924. Bruxelle: 1983; yenə onun.Laxe Moscou-Ankara.Les relation turko-sovietiques de 1919 a 1922 p. 1977. Vol. XVIII, pp. 165-193

[6] Andrew Mango. Ataturk. London: 1999.

Rza Nurun, Veysəl Ünüvarın, Ali Fuat Cebesoyun, S.Aralovun, M.Ə.Rəsulzadənin və başqalarının xatirələri[1] sənədlərdə öz əksini tapmayan bir sıra məqamlara aydınlıq gətirmək baxımından mühüm əhəmiyyət kəsb edir. Bu sırada Türkiyə qurtuluş hərəkatına rəhbərlik etmiş Mustafa Kamal Atatürkün və Sovet Azərbaycanının rəhbəri Nəriman Nərimanovun nəşr edilmiş məruzə və çıxışları, məktubları[2] mövzunu daha dərindən öyrənmək üçün qiymətli mənbə hesab edilməlidir.

**Tədqiqatın mənbə bazası**. Tədqiqat aparılarkən geniş spektrli mənbələrdən istifadə olunmuşdur.

Mövzunun əsas mənbə bazasını Azərbaycan Respublikası Dövlət Arxivinin 28-ci və 411-ci fondlarının materialları, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin 1-ci, 276-cı və 609-cu (N.Nərimanov fondu) fondunda saxlanılan materiallar təşkil etmişdir. Bu fondların materialları müxtəlif tarixçilər tərəfindən dövriyyəyə daxil edilsə də, bir sıra faktları dəqiqləşdirmək üçün müəllif onlara bir daha müraciət etməyi məqsədə müvafiq hesab etmişdir.

Mənbə bazasının mühüm qismini müxtəlif dövrlərdə SSRİ-də, Türkiyədə və Azərbaycanda nəşr edilmiş sənəd və materiallar topluları təşkil edir.[3] Bu toplularda yer alan müxtəlif arxiv sənədləri XX əsrin 20-ci illərində Azərbaycan-Türkiyə münasibətlərinin müxtəlif aspektlərini hərtərəfli təhlil etməyə imkan verir.

Problemin araşdırılması zamanı dövrün mətbuat materiallarına müraciət edil-

---

[1] Cebesoy A.F. Milli mücadile Hatiraları.İstanbul: 1953; Cebesoy A. F. Moskva hatıraları. İstanbul: 1955; Aralov S. Bir Sovyet diplomatının Türkiye Hatiraları:İstanbul, 1967; Nur R. Hayat ve hatiratım, c.III. İstanbul: 1968; Yenə onun. Moskva-Sakarya Hatiraları. İstanbul: 1991; Tengirşenk Y.K. Vatan Hizmetinde. Ankara: 1981; Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı: 1990; Ünüvar V. Naxçıvan: təlatüm və burulğanlar (1920-1921). Naxçıvan: 2006; Karabekir K. İstiklal Harbimiz. Cilit 1, İstanbul: 2006.

[2] Nərimanov N. Lenin və Şərq. Bakı: Azərnəşr, 1970; Yenə onun. Məqalələr və nitqlər, 2 cilddə, c.1. Bakı: 1971; yenə onun. Нариманов Н. Избранные произведения, в 3-х томах, Т.2. Баку: 1989; yenə onun. Ucqarlarda inqilabımzın tarixinə dair. (İ.V.Stalinə məktub). Bakı: 1992; Atatürk Mustafa Kamal. Nutuk. Atatürk Araşdırma Merkezi. Ankara: 1987; Atatürk Mustafa Kamal. Nutuk. Atatürk Araşdırma Merkezi. Ankara: 1989; Atatürkün Söylev ve Demecleri. I-III. Ankara: 1989; Ататюрк М.К. Речь. Анкара: 2005.

[3] Советско-турецкие отношения. Сборник документов (1917-1926 гг.). Москва: 1947; Документы внешней политики СССР, тт.2-10. Москва: 1958-1965; Директивы Главного командования фронтов Красной армии. 1917-1920. Москва: 1969; Türkiye Cumhuriyyeti 1917-1974. Ankara: 1979; TBMM.d.1.c: 2,8,7.1920; TBMM gizli zabıtları 26 inkişaf. 3. celse, 3 temmuz 1336 (1920); TBMM. Zabıt Ceridesi 2/ 204, 8 iyul 1920; TBMM.Zabıt Ceridesi. Cilt.5; Türkiye Böyük Millet Meclisinin Gizli Celese Zabıtları. Devre: I. C.II. Ankara: 1985; Birinci Beynəlxalq Türkoloji qurultay – 75 (I Beynəlxalq Türkoloji qurultayın 75-ci ildönümünə həsr edilmiş elmi konfransın materialları. 6-7 mart 2001). Bakı: 2001; Belgelerle türk tarihi dergisi dün, bu gün, yarın. Agustos-2001, sayı-55; Belgelerle türk tarihi dergisi dün, bu gün, yarın. Mart 2002, sayı 62; Azərbaycan-Türkiyə münasibətləri. 1920-1930. Sənədlər və materiallar, Tərtib edən L.Qurbanova. Bakı: 2002.

mişdir. Həm Türkiyə, həm də Rusiya və Azərbaycan mətbuatında (Hakimiyyeti-Milliye», «İkdam», «Правда», «Известия», «Бакинский рабочий», «Kommunist» və s.) Azərbaycanın Türkiyə ilə mədəni, iqtisadi əlaqələrini özündə əks etdirən müxtəlif səpkili materiallar tədqiqatda geniş istifadə olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri.** Mövzunun geniş tarixşünaslıq və mənbə bazası mövcuddur. Lakin problemin araşdırılması ilə bağlı bütün məsələlərin tam həllini tapdığını iddia etmək doğru olmazdı. Bunu nəzərə alaraq 1920-ci illərdə Azərbaycan ilə Türkiyə arasında siyasi-diplomatik, mədəni, humanitar, iqtisadi əlaqələrin bütün aspektlərinin hərtərəfli araşdırılması tədqiqatın əsas məqsədi kimi müəyyənləşdirilmişdir.

Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin həlli nəzərdə tutulmuşdur:

- XX əsrin 20-ci illərinin əvvəllərində Azərbaycanda və Cənubi Qafqazda cərəyan edən hadisələrin ümumi mənzərəsinin yaradılması və Sovet Rusiyası-Türkiyə münasibətlərinin formalaşmasına təsir göstərən amillərin araşdırılması;
- Sovet Azərbaycanı ilə TBMM hökuməti arasında əlaqələrin yaradılması prosesinin izlənilməsi;
- Sovet Rusiyası və Türkiyə arasında aparılan danışıqlarda Azərbaycan məsələsinin qoyuluşu;
- Azərbaycanın ərazi bütövlüyü, o cümlədən Naxçıvan bölgəsinin statusu məsələlərinə Türkiyə və Sovet Rusiyasının fərqli münasibətlərinin təhlil edilməsi;
- Ankara hökuməti yanında Azərbaycan SSR təmsilçiliyinin fəaliyyətinin öyrənilməsi;
- Sovet respublikalarının suverenliyinin məhdudlaşdırılması fonunda Azərbaycan-Türkiyə münasibətlərinin vəziyyətinin təhlil edilməsi;
- Türkiyənin milli istiqlal mücadiləsinə Azərbaycan Sovet hökumətinin maddi-mənəvi dəstəyinin işıqlandırılması;
- 1922-ci ildən başlayaraq Azərbaycanın Türkiyə ilə iqtisadi-ticarət əlaqələrinin inkişafının izlənilməsi;
- Həmin dövrdə mədəniyyət, elm, təhsil, ədəbiyyat sahəsində Azərbaycan Türkiyə əlaqələrinin işıqlandırılması.

**Dissertasiya işinin metodoloji əsası**. Tədqiqat hazırlanarkən tarix elminin ümumi metodoloji prinsipləri – tarixilik, obyektivlik, faktlara və hadisələrə müqayisəli və tənqidi yanaşma və başqa elmi prinsiplər tətbiq edilmişdir. Dissertasiya yazılarkən xronoloji ardıcıllığa və problemlərin düzülüşünə əməl edilmişdir. Problemlər araşdırılarkən faktik materialların təhlili, onlar arasında əlaqələrin yaradılması, obyektiv nəticələrin çıxarılması diqqət mərkəzində saxlanılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya mövzusunun ayrı-ayrı məqamları elmi ədəbiyyatda öz əksini tapsa da, 1920-1929-cu illərdə Azərbaycan-Türkiyə əlaqələri ilk dəfə olaraq təqdim olunan dissertasiya işində kompleks şəkildə araşdırılmışdır:

- Türkiyə-Rusiya münasibətləri kontekstində Azərbaycanın roluna və yerinə diqqət yetirilmişdir;
- Azərbaycan ərazi bütövlüyünün qorunub saxlanılmasında, xüsusən Naxçıvan bölgəsinin statusunun Azərbaycanın mənafeyinə uyğun həll edilməsində Türkiyənin tarixi rolu işıqlandırılmışdır;

- Türkiyədə Mustafa Kamalın başçılığı altında aparılan azadlıq mübarizəsinə Azərbaycanın göstərdiyi yardımın əhəmiyyəti vurğulanmışıdır;

- Tədqiq olunan dövrdə iki xalq arasında mədəniyyət, elm, ədəbiyyat, təhsil sahələrində mövcud olmuş əlaqələr sistemləşdirilmişdir;

- SSRİ-ZSFSR-Türkiyə iqtisadi-ticarət əlaqələrində Azərbaycanın yeri və əhəmiyyəti müəyyənləşdirilmişdir;

- Azərbaycan-Türkiyə münasibətlərinin gələcəyi baxımından XX əsrin 20-ci illərinin tarixi təcrübəsinin əhəmiyyəti göstərilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti**. Tədqiqatın nəticələri və müddəaları, istifadə olunmuş faktik materiallar

- Azərbaycan-Türkiyə münasibətlərinin tarixinin öyrənilməsində:
- iki dost ölkə arasında əlaqələrin inkişaf etdirilməsində;
- Ümumtürk tarixinin və Azərbaycan xarici siyasətinin tədqiqində;
- mühazirə və dərs vəsaitlərinin hazırlanmasında, seminar kursların təşkilində;
- gənclərin vətənpərvərlik və mənəvi tərbiyəsinin təşkilində və s. sahələrdə istifadə və tətbiq oluna bilər.

**Tədqiqatın aprobasiyası**. Dissertasiya işi AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun «Azərbaycanın müasir tarixi» şöbəsində yerinə yetirilmiş və iki dəfə müzakirə olunmuşdur (ikinci dəfə 8 fevral 2016-cı il, protokol №1). Dissertasiyanın ayrı-ayrı aspektləri müəllifin Azərbaycan Respublikasının Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda nəşr edilmiş məqalələrində, elmi konfrans və seminarlardakı çıxışlarında öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu**. Dissertasiya işi giriş, dörd fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın birinci fəsli **«Azərbaycan-Türkiyə siyasi-diplomatik münasibətləri (1920-1922-ci illər)»** adlanır. İki yarımfəsildən ibarət olan bu fəslin "Aprel işğalından sonra Sovet Azərbaycanı və Türkiyə Böyük Millət Məclisi hökuməti arasında əlaqələrin təşəkkül tapması" adlanan birinci yarımfəslində bolşeviklərin işğalından sonra Sovet Azərbaycanı və Türkiyə Böyük Millət Məclisi hökuməti arasında əlaqələrin yaradılmasından bəhs olunur. Müəllif göstərir ki, Sovet Rusiyasında davam edən vətəndaş müharibəsinin bolşeviklərin tam qələbəsi ilə başa çatması, eləcə də Osmanlı imperiyasının I Dünya müharibəsində məğlubiyyəti Azərbaycanda və bölgədə vəziyyətə öz mənfi təsirini göstərdi. AXC hökumətinin diplomatik-siyasi və hərbi səylərinə baxmayaraq, Sovet Rusiyasının işğalçı hərəkətlərini dayandırmaq mümkün olmadı.

Eyni zamanda Türkiyə dövləti də real parçalanmaq, bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə dayanmışdı. Belə şəraitdə mövcud beynəlxalq siyasi vəziyyəti düzgün qiymətləndirən türk vətənpərvərləri, çıxış yolunu ancaq bolşeviklərlə əlaqədə görmüşlər. Başqa bir tərəfdən isə Antanta dövlətlərinin gələcəkdə Qafqazı da işğal edəcəklərini göz önünə gətirərək, işğalçı qüvvələrin təcavüzkar planlarının qarşısını almaq məqsədilə, K.Qarabəkir paşa 1920-ci il martın 17-də

Bakıdakı Xəlil və Nuru paşalara göndərdiyi gizli teleqramda yazırdı ki, müstəmləkəçilər bizə qarşı hücumlarını artıracaqlar. Ona görə də, Antanta dövlətlərinin hücum planlarının qarşısını almaq üçün, dərhal bolşeviklərlə əlaqə qurmalı və bolşevizmin türk sərhədlərinə qədər gəlib çatması, Qafqazın istila edilməsi və hətta bolşeviklərin kiçik bir qüvvə ilə Azərbaycana qədər gələrək azərbaycanlılarla birlikdə türk sərhədlərinə doğru yaxınlaşmalarının "Azərbaycan, Dağıstan və Gürcüstanın bolşevik topluluğuna qatılmasının da çox uyğun olacağını" bildirmişdir.[1]

Əslində, bu teleqram kamalçı qüvvələrin nə qədər çıxılmaz vəziyyətə düşdüklərini, müstəmləkəçilərin əhatəsində qaldıqlarını sübut edir, mövcud siyasi vəziyyətdən ən az itki ilə yalnız bu cür çıxmağın mümkün olduğunu göstərirdi.

Belə vəziyyətdə bir neçə tərəfdən müstəmləkəçi qoşunların hücumlarına məruz qalan türklər üçün Azərbaycan Cümhuriyyəti digər dövlətlərə yeganə çıxış yolu idi. Məhz ona görə də Anadolu hərəkatının rəhbərləri vəziyyətdən çıxış yolunu bolşeviklərlə əlaqə yaratmaqda görürdülər.[2]

I Dünya müharibəsinin sonlarında Azərbaycan Cümhuriyyəti çox mürəkkəb geosiyasi hərbi vəziyyətlə üzləşmişdi. Mudros barışığının şərtlərinə görə Osmanlı ordusunun bölgəni tərk etməsindən və Antanta qoşunlarının buraya daxil olmasından sonra Azərbaycan faktik olaraq işğal edilmişdi. Cümhuriyyət hökumətini "türklərin intriqası ilə yaradılmış bir hökumət" hesab edən müttəfiqlərin (general Tomson) komandanlığı Azərbaycan hökumətinin türklərlə hər hansı əlaqəsini yolverilməz hesab edərək, bunun qarşısını bütün vasitələrlə almağa çalışırdı. Buna görə də Cümhuriyyət hökuməti türk xalqının istiqlal mübarizəsinə başçılıq edən TBMM hökumətinə açıq şəkildə siyasi-diplomatik, iqtisadi yardım göstərə bilməmişdi. Buna baxmayaraq, Türkiyənin istiqlal savaşına Azərbaycanda böyük rəğbət var idi və bu dəstək bir sıra hallarda konkret hərbi yardımlarda özünü göstərirdi.

1920-ci il aprelin 27-də XI qırmızı ordunun Azərbaycanı işğal etməsi ilə süqut etmiş Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin yerini Nəriman Nərimanovun rəhbərlik etdiyi Azərbaycan Sovet hökuməti tutdu. Bununla da Azərbaycan-Türkiyə münasibətlərində yeni mərhələ başlandı.

XI Qırmızı ordunun Bakıya hücum ərəfəsində Q.Orconikidze V.Leninə və P.Çiçerinə teleqramında Mustafa Kamalın ingilis hücumlarından onları müdafiə etmək üçün sovet qoşunlarının Türkiyə sərhədlərinə buraxılmasını Azərbaycan hökumətindən tələb etdiyi bildirilirdi.[3] Xəlil Paşa da öz xatirələrində kamalçıların Azərbaycanı ruslara təslim etmək niyyətlərinin olduğunu bildirir, bunu Azərbaycana xəyanət hesab edirdi.[4]

Nəriman Nərimanov o dövrdə RSFSR-in Xarici İşlər Komissarı Çiçerinin

---

[1] Hacıyev İ. Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan, 2010, s. 5.

[2] Sürmeli S. Türk-Gürcü ilişkileri. 1918-1921-ci yıllar, Ankara: 2001, s. 179.

[3] Bakı Dövlət Universitetinin 90 illik yubileyi münasibəti ilə tarix fakültəsi əməkdaşlarının elmi-praktik konfransının materialları. Bakı: 2009, 235.

[4] Halil Paşa. İttihad ve Terakkiden Cümhuriyyete bitmeyen savaş. 2. baskı, İstanbul: 2003, 224.

TBMM-ə qarşı mövcud siyasətinə qarşı açıq barışmaz mövqeyini bildirərək Leninə yazırdı: "Mən sizi xəbərdar etməyə borcluyam ki, yoldaş Çiçerin Şərq məsələsini dolaşdırır. O, "erməni məsələsi"nə həddindən artıq uyur və məhz "erməni məsələsi" üzündən türklərlə aramızın dəyməsi nəticəsində nələr baş verə biləcəyini nəzərə almır. Mən qəti deyirəm... Biz nəyin bahasına olursa-olsun türklərlə möhkəm ittifaq bağlamalıyıq".[1]

N.Nərimanovun kəskin etirazlarına baxmayaraq, Moskva bir-birinin ardınca respublikaların formal müstəqilliyinin ləğvinə aparan qərarlar qəbul etməkdə davam edirdi.

1921-ci ilin sonlarında S.Nasarenusun Ankaradan geri çağırılması, 1922-ci il yanvarın 5-də Semyon Aralovun onun yerinə təyin edilməsi göstərirdi ki, artıq bolşeviklər Azərbaycanın xaricdə hər hansı səlahiyyətli nümayəndə ilə təmsil olunmaq təcrübəsinə son qoymaq fikrindədirlər.

Beləliklə, 1920-ci ilin aprelindən 1923-cü ilin fevralınadək olan dövrdə Azərbaycan-Türkiyə münasibətlərini formal olaraq müstəqil dövlətlərarası münasibətlər kimi səciyyələndirmək olar.

Birinci fəslin ikinci yarımfəsli "Sovet Rusiyası-Türkiyə diplomatik-siyasi əlaqələri kontekstində Azərbaycanın ərazi bütövlüyü problemi" adlanır və burada göstərilir ki, Cənubi Qafqaz regionu ətrafında baş verən geosiyasi proseslər Azərbaycanın ərazi bütövlüyü üçün real təhlükə yaradır. Azərbaycanın sovetləşməsindən sonra Qırmızı Ordu dəstələrinin bölgələri işğal etməsi ilə yanaşı, 1920-ci il avqustun 10-da Türkiyə ilə Anatanta arasında Sevr müqaviləsinin imzalanması Azərbaycanın Qarabağ, Naxçıvan, Zəngəzur ərazilərinin Ermənistana verilməsi təhlükəsini daha da reallaşdırdı. Bu şəraitdə Türkiyə-Sovet Rusiyası münasibətləri Azərbaycanın ərazi bütövlüyü kontekstində mühüm əhəmiyyət kəsb edirdi. Naxçıvanın Türkiyə üçün əhəmiyyətini başa düşən TBMM hökuməti bu ərazinin ermənilərin əlinə keçməməsi üçün Naxçıvan məsələsini bolşeviklərlə diplomatik əlaqələrin əsas predmetinə çevirməyə çalışırdı. 1920-ci il iyulun 28-də Naxçıvanın XI qırmızı ordu hissələri tərəfindən tutulması, burada sovet hakimiyyətinin təşkili bu məsələnin aktuallığını daha da artırdı.

Bolşeviklərin 1920-ci il avqustun 10-da Ermənistan Respublikası ilə bağladıqları müqavilə türklərin narahatlığına səbəb oldu. Müqaviləyə görə Qarabağ, Zəngəzur və Naxçıvan Sovetlərin müvəqqəti idarəçiliyində qalır, Gümrü-Şahtaxtı-Culfa dəmir yolu isə ermənilər tərəfindən istifadə edilə bilərdi.[2] Bu müqavilə Sovet-Türkiyə münasibətlərinin gərginləşməsinə səbəb oldu. Sevr müqaviləsi də ermənilərin daha da azğınlaşmasına gətirib çıxardı.

Həmin günlərdə Moskvada olan türk nümayəndə heyəti bu müqavilədən dolayı Sovet hökumətinə öz etirazını bildirmiş, bolşeviklərin lideri Lenin bu müqavilənin bağlanmasını «səhv addım» kimi qiymətləndirmişdi.[3]

Sevr müqaviləsindən ruhlanan Ermənistan hökuməti Şərqi Anadoluda və keç-

---

[1] Həsənov H.Ə. Nəriman Nərimanov – milli təmayüllü kommunist. Bakı: 2004, 163-164.
[2] Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922), s. 390.
[3] Cebesoy A.F. Milli mücadile Hatiraları. İstanbul: 1953, s. 73; Qafarov V. Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922), s. 391.

miş İrəvan quberniyasının şərq ərazilərində yeni işğalçılıq hərəkətlərinə başladı. Bu, türk inqilabi hökumətini Ermənistanın silahlı təcavüzünün qarşısını almaq üçün əks tədbirlər görməyə vadar etdi. Gümrü müqaviləsini imzalamaqla Ermənistan bütün iddialarından əl çəkdiyini təsdiq edirdi.

Noyabrın 29-da Dilicanda Ermənistanda sovet hakimiyyətinin elan edilməsi proseslərə öz təsirini göstərdi. Azərbaycan MİK-nin sədri N.Nərimanovun bu hadisə ilə bağlı dekabrın 1-də Bakı Sovetinin iclasında Zəngəzur və Naxçıvanın Sovet Ermənistanının bölünməz ərazisi olduğu haqqında bəyanatı[1] rusların və ermənilərin böyük sevincinə səbəb olsa da, türklər üçün gözlənilməz oldu. Bunu K.Qarabəkir paşa B.Şahtaxtinski ilə Gümrüdə olan görüşündə dilə gətirmişdi.[2] Lakin bu, türklərin Naxçıvanı ermənilərdən qorumaq əzminə mane ola bilmədi.

Aparılan ümumi müzakirələrin nəticəsi olaraq 1921-ci il martın 16-da Moskvada hər iki ölkə arasında dostluq və qardaşlıq haqqında 16 maddəlik müqavilə (2 əlavə protokolla birgə) imzalanmışdır.

Müqavilənin 3 bəndinə əsasən Naxçıvan vilayəti müqavilənin əlavəsində göstərilən sərhədlər daxilində və heç bir üçüncü dövlətə verilməmək şərti ilə muxtar ərazi şəklində Azərbaycanın himayəsində saxlanılmışdır.

Qars danışıqlarında Azərbaycanla bağlı müzakirə edilən əsas məsələ Naxçıvanın statusu ilə bağlı oldu. Türk heyəti danışıqlarda Moskva müqaviləsi əsasında hazırlanmış layihəni təqdim etdi. Qarşı tərəflər isə məsələ ilə bağlı onların vahid mövqeyini əks etdirən xüsusi memorandumla çıxış etdilər. Türk diplomatlarının prinsipiallığı sayəsində Naxçıvanla bağlı Moskva müqaviləsinin müvafiq müddəası Qars müqaviləsinə də daxil edildi.[3] Müqavilənin beşinci bəndinə əsasən Naxçıvanın Azərbaycan SSR tərkibində muxtariyyəti təsdiq edildi və Türkiyə Cümhuriyyətinin Naxçıvan üzərindəki təminatçılıq funksiyası da təsbit olunmuşdur.[4]

Beləliklə, Naxçıvan əhalisinin qətiyyətli mövqeyi və Türkiyə Milli hökumətinin ardıcıl və səmərəli diplomatik fəaliyyəti nəticəsində Naxçıvan məsələsi Azərbaycanın və bölgənin maraqlarına uyğun və ədalətli qaydada həll olunmuşdur.

Dissertasiyanın ikinci fəsli "**Azərbaycan SSR SSRİ-Türkiyə münasibətlərində (1922-1929-cu illər)**" adlanır və 2 yarımfəsildən ibarətdir. "Sovet dövlətinin Türkiyə Cümhuriyyəti ilə qarşılıqlı əlaqələrində Azərbaycan SSR-nin iştirakı" adlanan birinci yarımfəsildə göstərilir ki, Moskva və Qars müqavilələrinin bağlanması ilə Sovet Rusiyası ilə TBMM hökuməti arasında qarşılıqlı münasibətlərin hüquqi əsası qoyuldu.

Lozanna müqaviləsinin imzalanması ilə 1923-cü ilin payızında türk xalqı tam qələbə qazanmış, türk torpaqları düşmən tapdağından azad edilmişdir. 1924-cü il sentyabrın 8-də SSRİ hökumətinin Türkiyə təmsilçisi Y.Z.Suris baş nazir İsmət

---

[1] Коммунист, 2 августа 1920 гг.

[2] Həsənli C.P. Sovet dövründə Azərbaycanın xarici siyasəti. 1920-1939. Bakı: 2012, 308.

[3] ARDA, f. 28, s. 1, iş 129, v. 35.

[4] Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti 1917-1921-ci illər, s. 349; Həsənli C.P. Sovet dövründə Azərbaycanın xarici siyasəti. 1920-1939, s. 433.

paşa ilə görüşərək, 16 mart 1921-ci il tarixli müqavilənin yenidən nəzərdən keçirilməsi təklifini irəli sürmüşdür. Bu Cənubi Qafqaz, o cümlədən Sovet Azərbaycanı ilə bağlı olmuşdur.[1]

Bütün bu olanları diqqət mərkəzində saxlayan Sovet İttifaqı hökuməti və Sovet Azərbaycanı rəhbərliyi, 1922-1923-cü illərdə aparılan danışıqların və o cümlədən tezliklə Naxçıvan bölgəsinə dair maddələrin reallaşdırılmasına başlamışlar. 1924-cü il fevralın 9-da Azərbaycan SSR MİK Naxçıvan muxtar ölkəsinin Naxçıvan MSSR-ə çevrilməsinə dair yeni dekret vermişdir.[2] Zəngəzurun qərb hissəsinin Ermənistana verilməsi, Naxçıvanla Azərbaycan arasında əlaqənin kəsilməsinə səbəb olmuşdu.

İkinci fəslin ikinci yarımfəsli "İkitərəfli münasibətlərdə Türkiyədəki Azərbaycan siyasi mühacirəti amili" adlanır və burada AXC rəhbərlərinin bolşeviklərə təhvil verilməsi haqqında qərara və əldə olunan razılığa əsasən Cümhuriyyət dövründə dövlət idarəçiliyində mühüm vəzifələr tutan şəxslərə qarşı bolşeviklər hər hansı siyasi-hüquqi cəzalar tətbiq etməmək haqqında öhdəlik götürmüşdülər. Lakin bolşevik rejimi öz vədlərinə əməl etməyərək, siyasi rəqiblərinə qarşı ən sərt təqiblərə və təzyiqlərə əl atmış, nəticədə minlərlə vətənpərvər ya öz doğma vətənini tərk edərək, mühacirətə getməyə məcbur olmuş, ya da vətəndə qalmaqla repressiyalara məruz qalaraq məhv edilmişdi.

Xaricə getmiş azərbaycanlı mühacirlərin əksəriyyəti Türkiyədə məskunlaşmağa məcbur olmuşdular.

Bildirildiyinə görə 1921-ci ilin mayına qədər TBMM-in nəzarət etdiyi ərazidə sovetlərdən qaçan mühacirlərin sayı 175000 nəfərə çatırdı. Onlardan bəziləri müxtəlif ölkələrə viza almış, 115000 nəfəri isə Türkiyədə qalmaqda davam etmişdir.[3]

Müxtəlif təşkilatlarda birləşən mühacir qruplarının əksəriyyətinin fəaliyyəti RSFSR və Sovet Azərbaycanı hökumətinə qarşı yönəlmişdi. Ona görə də mütəmadi olaraq Sovet Azərbaycanı kommunist hökuməti ilə TBMM hökuməti arasında müzakirə edilən məsələlərdən biri də, aprel işğalından sonra mühacirət etməyə məcbur olan müsavatçı xadimlərin və millətçi təşkilatların fəaliyyətlərinin qadağan olunması olmuşdur.

Azərbaycanlı mühacirlər müxtəlif şəhərlərdə təşkilatlanaraq, bolşeviklərə qarşı mübarizələrini davam etdirirdilər.

TBMM hökuməti 1921-ci il mayın 4-də Azərbaycandakı siyasi şərait üzündən Anadoluya gələn mühacirlərə vətəndaşlıq statusu verilməsi haqqında qərar qəbul etmişdir.[4]

Mühacirlərin bir qismi münasibətlərin normallaşdığını nəzərə alıb, Sovet Azərbaycanına geri dönmüşlər. Amma Sovet hökumətinin göstərişi ilə 1930-cu il

---

[1] Qasımlı M. Azerbaycan türklerinin milli mücadele tarihi. 1920-1945. İstanbul: 2006, 492.

[2] Собрание узаконений и распоряжений рабочего и крестьянского правительства Азербайджанской ССР за 1924 год. Баку: 1925, 209.

[3] Бакинский рабочий, 1927, 17 июня

[4] T.C.B.C.A. Bakanlar Kurulu kararı 030/18/01/04/48/16/

aprelin 13-də geriyə qayıtmış mühacirlərin bir qismi həbs edilmişdi.[1]

İki ölkə arasında münasibətlərin yaxşılaşması Türkiyədəki mühacirlərin vəziyyətində də müəyyən dəyişiklər yaratmış, onlar da bolşevik hökumətinə qarşı müəyyən mübarizə metodlarından istifadə etmişlər. Belə üsullardan biri də qəzet və jurnalların çapı məsələsi idi. Bu jurnallardan sovet hakim dairələrinin ən çox narahatçılığına səbəb olan Azərbaycan mühacirlərinin 1923-1927-ci illərdə İstanbulda nəşr etdikləri "Yeni Qafqasiyə" jurnalı idi.[2]

Bunun ardınca 1929-1931-ci illərdə "Odlu yurd" məcmuəsi çap olunmuşdu. Cəmi 32 nömrəsi çapdan çıxan bu məcmuənin də əsas hədəfi sovetlər idi.

"Bildiriş qəzeti", "Yeşil Yaprak" məcmuəsi kimi mətbuat orqanlarının da əsas məqsədi Azərbaycanın bolşeviklər tərəfindən istilasını açıb göstərməkdən ibarət idi. Mühacirət mətbu orqanlarında Əhməd bəy Ağayev, Əlibəy Hüseynzadə, Mirzə Bala Məmmədzadə kimi mühacirlər çıxışlar edirdilər.

Göründüyü kimi, bir sıra mühacirlər məhz Türkiyədə yaşamış, fəaliyyət göstərmiş, hətta dövlət vəzifələrinə belə seçilə bilmişdilər. Lakin onların böyük əksəriyyəti ömürlərinin sonunadək vətənlərini müstəqil və azad görə bilmədilər.

Dissertasiya işinin üçüncü fəsli **"Azərbaycan SSR SSRİ-nin Türkiyə Cümhuriyyəti ilə iqtisadi münasibətlərində"** adlanır. Bu fəslin birinci yarımfəslində Türkiyənin istiqlal mübarizəsinə Sovet Azərbaycanının maddi və mənəvi yardımından bəhs olunur.

Birinci Dünya müharibəsində Osmanlı imperiyası öz ərazisinin böyük bir hissəsini itirmiş, onun torpaqları müstəmləkəçi dövlətlər arasında bölüşdürülmüşdü. Mustafa Kamal paşanın başçılığı ilə Türkiyədə vüsət alan qurtuluş savaşına Azərbaycan türkləri böyük mənəvi və maddi dəstək göstərmişdilər. Bu maddi dəstəyin əsası hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə qoyulmuş, sonradan daha da genişlənmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin baş naziri Nəsib bəy Yusifbəyli 1,5 milyon fransız frankı miqdarında pul yardımını göstərən çek və qəbzləri imzalayaraq, Anadolu milli mübarizə rəhbərlərinə təhvil vermişdi.[3] 19 aprel 1920-ci ildə Azərbaycan hökuməti türk ordusuna verilməsi üçün yenidən vəsait ayırmışdı.

Nəriman Nərimanov da Məhəmməd Kəngərli vasitəsilə 1,5 milyon franklıq yardımın hamısının göndərilməsindən sonra başqa, daha çox miqdarda pul yardımını da Şeyxzamanlı vasitəsilə TBMM hökumətinə göndərmişdi. Məhəmməd Kəngərli Şeyxzamanlı ilə görüşlərində yardımın miqdarını öyrənməyə çalışdığını, ancaq onun "doktor, bu qardaş yardımıdır... Bunu yapan da, mən yapdım, deməz" – deyərək, söhbətdən yayındığını bildirmişdi.[4]

M.Kamal paşa Antanta qüvvələrinə qarşı mübarizə aparmaq üçün 1920-ci il aprelin 26-da yardım üçün Sovet Rusiyasına da məktubla müraciət etmişdi.

---

[1] ARDA, f. 411, s. 1, iş 129, v.200

[2] Tahirli A. Rus əsarətinə və bolşevizmə qarşı ideoloji mücadilə tarixindən // Azərbaycan tarixi muzeyi. Bakı: Elm, 2004, 265-266

[3] Swietochovski T. Müslüman cemaatten ulusal kimliğe Rus Azerbaycanı/ 1905-1920. çevireni Nuray Mert, İstanbul bağlam yayınları, 1988, s.215.

[4] Keykurun N. Azerbaycan istiklal mücadelesinden hatıralar. 1905-1920, s. 11

Azərbaycan türkləri "Türkiyə milli azadlıq hərəkatına yardım Fondu" təşkil edərkən nənələrimiz qədim qızıl əşyalarını, ana və bacılarımız qızıl qol və boyunbağılarını, üzüklərini, qızıl sırğa və tənələrini təmənnasız olaraq həmin yardım fonduna vermişlər.[1]

TBMM üzvlərinə Azərbaycan hərbi birliklərinin də yardımı olmuşdur.

1922-ci il sentyabrın 17-də Bakıda xüsusi "Qırmızı Aypara" iməciliyi keçirilmiş və əldə olunan gəlir Türkiyəyə göndərilmişdi.[2]

TBBM-ə göndərilən ən dəyərli yardımlardan biri neft və neft məhsulları idi.[3]

Nəriman Nərimanov TBMM-in milli azadlıq savaşında qələbələrini alqışlayır, əlindən gələn yardımları edirdi. Nərimanovun bu xidmətlərini nəzərə alan TBMM hökuməti Nərimanova fəxri qılınc verməkdən ötrü M.Kamalın göstərişi ilə Azərbaycana xüsusi heyət də göndərmişdi.[4]

Türkiyəyə yardımlar məsələsi sonralar da davam etmişdi. Sovet Azərbaycanı tərəfindən Türkiyəyə 20-ci illərin əvvəllərində göstərilmiş yardımlar dost və qardaş xalqın milli azadlıq hərəkatının uğurla başa çatmasında, Türkiyənin parçalanmaq təhlükəsindən xilas olmasında mühüm amil oldu.

Üçüncü fəslin ikinci yarımfəsli "Sovet-Türkiyə iqtisadi əlaqələrində Azərbaycanın yeri" adlanır. Müəllif burada göstərir ki, Sovet dövləti TBMM hökuməti ilə iqtisadi əlaqələrin qurulmasında Azərbaycana böyük önəm verirdi.

Moskva müqaviləsi imzalanana qədər Sovet Azərbaycanı ilə TBMM hökuməti arasında iqtisadi əlaqələrin qurulması zəif olduğundan qarşılıqlı ticarət münasibətləri də qeyri-normal şəkildə inkişaf etmişdir. 1921-ci il Moskva müqaviləsi imzalanandan sonra, Sovet Azərbaycanı ilə TBMM hökuməti arasında ticarət əlaqələrinin bərpa olunması üçün yeni şərait yarandı. Qars anlaşması Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında ticarət-iqtisadi əlaqələrin də inkişafına şərait yaratdı.

Hər iki ölkənin rəsmiləri ticarət əlaqələrinin qurulmasında maraqlı idi. 1922-ci ilin əvvəllərindən etibarən Sovet Rusiyası Türkiyədə tam bir səfərbərlik hərəkatı başlatmışdı. Bağlanacaq Ticarət anlaşması Qars müqaviləsinin şərtlərinə əsaslanırdı.[5]

Beləliklə, 1922-ci ilə qədər Rusiyada «vətəndaş müharibəsi və xarici hərbi müdaxilə», Türkiyədə «qurtuluş savaşı» dövrü, Cənubi Qafqazda isə bərpa dövrü olduğundan, Türkiyə ilə Qafqaz respublikaları arasında ticarət əlaqələri daha çox yerli səciyyə daşıyırdı.

Yalnız Moskva və Qars müqavilələrinin bağlanmasından sonra qarşılıqlı iqtisadi əlaqələr genişlənməyə başlamışdı.[6]

---

[1] Siyasi tarix. I hissə. Bakı: Şur, 1995, s. 149.

[2] Бакинский рабочий, 1922, 1921,10 июля.

[3] Yenə orada.

[4] ARDA, f. 28, s. 1, iş 69, v.17-21.

[5] Bağırov Y. Kurtuluş savaşı yıllarında Azerbaycan-Türkiye ilişkileri. İstanbul: Yeni Gün yayınları, 2000, s. 48-49.

[6] Керимов М.А. К истории экономических отношений между Закавказскими советскими республиками и Турцией // Краткое сообщение Института Востоковедения,

İki ölkə arasında iqtisadi əlaqələrin hüquqi əsasını təşkil edən sənədlərdən biri də Qars müqaviləsi idi. Qars müqaviləsinin 17-ci maddəsində qərarlaşdırıldığı kimi, hər iki ölkə əlaqələrin fasiləsizliyini təmin etmək məqsədi ilə dəmir yolu, teleqraf və başqa rabitə vasitələrinin qorunmasını və mümkün sürətlə inkişafını, həmçinin insanların və məhsulların heç bir maneçilik olmadan sərbəst hərəkətini təmin etmək üçün bütün tədbirləri qarşılıqlı şəkildə həyata keçirməyi öz öhdəsinə götürürdülər.[1]

İqtisadi əlaqələrin davamlılığını təmin etmək üçün 1922-ci il avqustun 7-də Cənubi Qafqazın Dövlət İdxal-ixrac Ticarət İdarəsi – "Zakqostorq" yaradıldı.

Bakıda hər il keçirilən yarmarkalar və ticarət ikitərəfli iqtisadi və ticarət münasibətlərinin inkişafına da təkan vermişdir. Məhz bundan sonra, 1923-cü ilin dekabrında Türkiyə hökuməti SSRİ ilə ticarəti məhdudlaşdıran qərarları ləğv etmiş, SSRİ-yə məhsul gətirən və məhsul aparan türk tacirlərinə lisensiyasız hüquqlar verilmişdir.[2]

1927-ci ildə Türkiyə ilə sovet respublikaları arasında ticarət müqaviləsinin imzalanması qarşılıqlı əlaqələrin inkişafında mühüm rol oynamışdır.

1923-1927-ci illərdə Sovet hökuməti türk tacirlərinə öz mallarını gömrüksüz SSRİ-yə ixrac etmək hüququ vermişdi. Bu məhsullar yüngül sənaye, kənd təsərrüfatı, sənətkarlıq işləri və digər sahələri əhatə etmişdir. Sovet iqtisadi orqanlarının verdiyi məlumata görə, o vaxtlar Türkiyənin bütün Qara dəniz limanlarının hamısında yalnız Sovet Azərbaycanının neft məhsullarından istifadə olunurdu.[3]

Beləliklə, XX əsrin 20-ci illərində Azərbaycan-Türkiyə ticarət əlaqələrinin inkişafını şərti olaraq bir neçə mərhələyə ayırmaq olar. 1920-1922-ci illərdə hər iki ölkədə baş verən siyasi proseslər səbəbindən ikitərəfli iqtisadi-ticarət əlaqələri, demək olar ki, pozulmuş və yalnız yerli səciyyə daşımışdır. Bu dövrdə Azərbaycan Sovet hökuməti Türkiyə qurtuluş savaşına böyük maddi və maliyyə yardımı göstərmişdir. 1922-ci ildən başlayaraq Azərbaycanın Türkiyə ilə iqtisadi əlaqələri ZSFSR çərçivəsində inkişaf etdirilmişdir. Azərbaycan Türkiyəyə əsasən neft və neft məhsulları ixrac etmiş, qonşu ölkədən əsasən manufaktura və kənd təsərrüfatı malları almışdır.

Dissertasiya işinin IV fəsli "**Sovet Azərbaycanının Türkiyə ilə mədəniyyət, elm və təhsil sahəsində əlaqələri**" adlanır və iki yarımfəsildən ibarətdir. "Sovet Azərbaycanının Türkiyə ilə mədəni əlaqələri" adlanan birinci yarımfəslində göstərilir ki, 1920-ci illərin əvvəllərində əsası qoyulmuş Türkiyə-Sovet münasibətləri sonrakı illərdə uğurla inkişaf edərək, iki ölkə arasında mədəni əlaqələrə müsbət təsir etmişdir. Sovet-Türkiyə mədəni əməkdaşlığı 20-ci illərdə müxtəlif formalarda həyata keçirilirdi ki, buraya sərgilərin, festivalların, konsertlərin keçirilməsi, nəşrlərlə, elmi əsərlərlə, ədəbiyyat əsərləri ilə mübadilə, maarif, elmi-tədqiqatlar, incəsənət sahəsində yaradıcılıq əməkdaşlığı, mədəniyyət, elm, maarif xadimləri-

---

XXVI, 1958, c. 88.

[1] Əhmədli N. Qars müqaviləsi. Bakı: 2004, s. 30

[2] Sofiyev M. Güney Qafqaz respublikaları Sovet-Türkiyə əlaqələrində (1922-1936-cı illər), s. 69

[3] Yenə orada, s. ,149

nin, yaradıcı kollektivlərin qarşılıqlı mübadiləsi və s. şəklində olurdu.

Bir çox fərqli cəhətlərinə və məqsədlərinə baxmayaraq, həmin illərdə SSRİ-nin müsəlman respublikalarında həyata keçirilən mədəni inqilabla Atatürk islahatları arasında müəyyən uyğunluqlar da var idi. Sovet-Türkiyə mədəni əlaqələrinin yaradılmasında Ümumittifaq Xariclə Mədəni Əlaqələr Cəmiyyəti və ZSFSR-in müvafiq cəmiyyəti mühüm rol oynayırdı. Azərbaycan formal müstəqilliyini itirsə də, SSRİ və ZSFSR daxilində Türkiyə ilə mədəni əlaqələrini davam etdirmək imkanı əldə etmişdi.

İki ölkənin mədəni siyasətində həyata keçirilən müxtəlif tədbirlər də ikitərəfli əlaqələrin inkişafına təkan vermişdir. Belə tədbirlərdən biri də 1920-ci ildə Bakıda keçirilən Şərq xalqlarının birinci qurultayı olmuşdur. Qurultay əslində siyasi məqsədlər daşısa da, mədəni sahəyə də təsiri olmuş, Azərbaycan-Türkiyə əlaqələrinin genişlənməsinə təkan vermişdir.

1922-ci ildə SSRİ-nin və ZSFSR-in təşkilindən sonra Sovet Azərbaycanının mədəni əlaqələri daha çox İttifaq çərçivəsində həyata keçirilmişdir.

1920-ci illərin II yarısında Sovet hökuməti Şərq ölkələri, o cümlədən Türkiyə ilə mədəni əlaqələrin qarşılıqlı surətdə inkişafına yardım məqsədi ilə bir sıra cəmiyyətlər yaratmışdır. Onlardan 1925-ci ildə yaradılmış Xariclə Ümumittifaq Mədəni Əlaqələr Cəmiyyəti, 1928-ci ildə yaradılmış Zaqafqaziya Xariclə Mədəni Əlaqə Cəmiyyətini (ZXMƏC) göstərmək olar.

1923-1929-cu illərdə Azərbaycan SSR SSRİ-nin müxtəlif ölkələrdə təşkil etdiyi sərgilərdə də iştirak etmişdir. Bu ölkələr arasında bir sıra Şərq ölkələri ilə yanaşı, Türkiyə də olmuşdur.

Azərbaycanla-Türkiyə arasında 20-ci illərdə teatr, musiqi, idman və s. sahəsində də mədəni əlaqələr inkişaf etmişdir.

Türkiyə hökuməti milli kadrların hazırlanması üçün, uçuş və paraşüt idmanı üzrə sovet mütəxəssislərini Ankaraya dəvət etmişdir. Bu sahədə Türkiyə milli kadrlarının bir hissəsi Sovet İttifaqında hazırlıq kursu keçmiş, onların böyük bir hissəsi isə Qafqaz respublikalarında hazırlanmışdır.

Göründüyü kimi, bu illərdə Sovet Azərbaycanı ilə Türkiyə respublikası arasında mədəni əlaqələr bütün sahələrdə inkişaf etmiş, hər iki qardaş xalqın yaxınlaşmasında mühüm amilə çevrilmişdir.

Dördüncü fəslin 2-ci yarımfəslində "Sovet Azərbaycanının Türkiyə ilə elm və təhsil sahəsində əlaqələri" adlanır. Sovet Azərbaycanı ilə TBMM hökuməti arasında siyasi, iqtisadi və digər sahələrdə münasibətlərin yaranması elm və təhsil sahəsində əlaqələrin də inkişafına şərait yaratmışdı.

Hələ AXC hökuməti ölkədə mədəni-maarif işini yenidən qurmaq üçün Türkiyə hökumətinə müraciət etmiş, Osmanlı hökuməti bu dövrdə Antanta qüvvələrinin ciddi təzyiqləri ilə üzləşdiyinə baxmayaraq, bununla bağlı müəyyən qərarlar da qəbul etmişdir.

Maarif işinin təşkilinə kömək etmək məqsədilə, Osmanlı dövlətinin özündə təhsil işçilərinə ehtiyacın olduğu bir zamanda, Bakıya türk müəllimləri göndərilmişdi.[1]

[1] Иоффе А.Е. Интернациональные научные и культурные связи Советского Союза

1920-ci il sentyabrın 1-8-də Bakıda keçirilmiş Şərq xalqlarının birinci qurultayına TBMM-dən yüzdən artıq nümayəndə gəlmişdi.

Sovet Azərbaycanı alimləri Türkiyənin tarixi, mədəniyyəti və incəsənətinin öyrənilməsi sahəsində bir sıra işlər görmüşlər. Onların əsərləri 20-ci illərdən başlayaraq həm Bakıda, həm də Türkiyənin özündə çap olunmağa başlanmışdır.[1]

Türkiyədə Atatürkün təşəbbüsü və rəhbərliyi altında həyata keçirilən mədəni maarif dəyişikliklərinə, dilçilik sahəsindəki islahatlara Azərbaycanın mədəni quruculuq təcrübələrinin də mühüm rolu olmuşdur. Xüsusən türk respublikalarında, birinci növbədə Sovet Azərbaycanında aparılan əlifba islahatlarının Türkiyədə əlifba islahatının keçirilməsinə böyük təsiri olmuşdur.

Türkiyə Maarif Nazirliyi 1925-ci ildə Sovet səfirliyi vasitəsilə XÜMƏC idarəsindən xahiş etmişdir ki, Sovet İttifaqında xalq maarifinin vəziyyətini əks etdirən müxtəlif növ materialları tezliklə Türkiyəyə göndərsin.[2] Bu xahişə cavab olaraq SSRİ-nin Xalq Maarif Komissarlığı Türkiyəyə çoxlu miqdarda pedaqoji ədəbiyyat göndərmişdir. Onların içərisində məktəb proqramı, planı, hesabatı və s. var idi.[3] Türkiyəyə göndərilmiş bütün bu materiallar əsasən Azərbaycan dilində idi.

1926-cı ilin fevral-mart aylarında Bakıda türkoloqların Birinci qurultayı keçirilmişdir. Həmin qurultayda əsas məsələlərdən biri türkdilli xalqların istifadə etdikləri ərəb əlifbasının latın əlifbası ilə əvəz edilməsi məsələsi olmuşdur.[4] Türk alimləri professor Köprülüzadə Fuad bəy, professor Nəcibə Assim, professor Hüseynzadə Əli bəy, tarixçi Şəmsəddin bəy, muzey direktoru Ethem bəy və bir çox başqaları qurultayda iştirak etmişdilər. Bütövlükdə qurultayda TBMM-dən yüzdən çox nümayəndə iştirak etmişdir.

1926-cı ildə Bakıda Türk xalqlarının qurultayının keçirilməsi, türkiyəli alimlərin burada fəal iştirak etmələri tədqiqatçılar tərəfindən yüksək qiymətləndirilir.[5]

Bakıda Türkoloji qurultaydan sonra onun tövsiyələrinə uyğun olaraq, Türkiyədə də dil sahəsində islahatlar aparmaq üçün xüsusi elmi-linqvistik komissiya yaradılmışdı.[6]

Əhalinin geniş təbəqələrinin savadlanması üçün, çətinliklər törədən ərəb əlifbasını yeni, latınlaşdırılmış əlifba ilə əvəz etmək məsələsi ətrafında Türkiyə Böyük Millət Məclisi deputatları, hökumət, partiya, ictimai təşkilatların nümayəndələri çıxışlar edirdilər. Azərbaycanın təşəbbüsünə qoşularaq, Türkiyə də, demək

---

1928-1932. Москва: 1969, с. 146-148.

[1] Bax: İstanbul darülfünunu. İstanbul, 1931, № 9-10.

[2] Sofiyev M. Güney Qafqaz respublikaları Sovet-Türkiyə əlaqələrində (1922-1936-cı illər), s. 241.

[3] ARPİİSSA, f. 1, siy. 185, iş 568, v. 3.

[4] Sumbatzadə Ə.C., Hüseynov B.M. Sovet Azərbaycanı və xarici Şərq, s. 49

[5] Мусаева Т.А., Мамедов А.А. На путях создания Национальной Академии Наук и формирования кадров научной интеллигенции Азербайджана, s. 32 və s.; Мусаева Т.А. Культура Азербайджана на рубеже эпох (20-30-ые годы XX столетия), s. 109-129; Rüstəmova A.S. Azərbaycan SSR-də elmi-sahə kitabxanalarının yaranması və fəaliyyəti (1920– iyun 1941-ci illər), s. 65-68.

[6] Королкова М. Латинский алфавит в Турции // Новый Восток, 1926, №13-14, s. 457.

olar ki, onunla bir vaxtda yeni əlifbaya keçdi. 1928-ci ilin payızında, Türkiyənin Böyük Millət Məclisində Mustafa Kamalın çıxışından sonra[1] məclis yeni əlifbanın qəbul edilməsi haqqında rəsmi qanun çıxarmışdı. Bu qanun üzrə 1929-cu ildən yeni əlifba bütün türklər üçün icbari oldu.[2]

Türkiyə hökumətinin xahişi ilə Ankarada ali hüquq məktəbləri üçün Azərbaycan kitab palatası 1929-cu ilin iyun-iyul aylarında türk dillərində külli miqdarda hüquq ədəbiyyatı, xüsusi ilə Azərbaycan Konstitusiyasını, sərəncamlar və qanunlar məcmuəsini, o cümlədən qadınların vəziyyəti haqqındakı qanunların və Azərbaycan Xalq Ədliyyə Komissarlığının müxtəlif materiallarını göndərmişdi. Təkcə 1930-cu ilin II yarısında XÜMƏC Türkiyəyə Azərbaycan və tatar dillərində 224 adda kitab, habelə dövri ədəbiyyat göndərmişdir.[3]

Zaqafqaziya Xariclə Mədəni Əlaqə Cəmiyyəti 1929-cu ildə Türkiyəyə kənd təsərrüfatı, tibb, sənaye, hüquq və s. sahələrinə dair 97 adda 288 nüsxə elmi kitab və jurnal göndərmişdi.

Əlbəttə digər sahələrdə olduğu kimi mədəniyyət və maarif sahəsində Türkiyə ilə əlaqələrdə Sovet İttifaqı hökuməti sırf siyasi-ideoloji məqsədlərdən çıxış edirdi. Ancaq buna baxmayaraq iki qardaş xalq arasında mövcud olmuş mədəni ünsiyyət onların mənəvi birliyinin qorunub saxlanılmasına xidmət edir, gələcək münasibətlərin inkişaf etdirilməsinə mənəvi zəmin yaradırdı.

Dissertasiyanın "Nəticə" hissəsində aparılan elmi araşdırmalara, əldə edilmiş elmi nəticələrə yekun vurulmuşdur.

---

[1] Sumbatzadə Ə.C., Hüseynov B.M. Sovet Azərbaycanı və xarici Şərq, s. 65.
[2] Düstur. Cilt. 10, Ankara: 1934, s. 3-4.
[3] Sofiyev M. Güney Qafqaz respublikaları Sovet-Türkiyə əlaqələrində (1922-1936-cı illər), s. 149.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**

1. Sovet Rusiyasının Türkiyə Cümhuriyyəti ilə siyasi əlaqələrində Azərbaycan SSR // Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi əsərləri, 2012, №, s. 184-193.
2. Помощь Советского Азербайджана Турции в 20-е годы XX столетия // Кавказ и мир – Международный научный журнал, №17. Тбилиси, 2014, с. 207-210.
3. Sovet-Türkiyə iqtisadi əlaqələrində Azərbaycanın yeri // Tarix və onun problemləri, 2016, №1, s. 249-254.
4. Sovet Rusiyası-Türkiyə diplomatik-siyasi əlaqələri kontekstində Azərbaycanın ərazi bütövlüyü problemi // Pedaqoji Universitet Xəbərləri. Humanitar elmlər seriyası, 2016, №1, s. 144-147.
5. XX əsrin 20-ci illərində Türkiyə ilə Azərbaycan arasında mədəni əlaqələrin inkişafı // Azərbaycan Respublikası "Azərbaycanın yaradıcı ziyalıları" İctimai Birliyi "Elmin müasir nailiyyətləri" mövzusunda VI Beynəlxalq elmi konfransın (Bakı ş., 27-28 fevral 2014-cü il) materialları. Bakı, 2014, s. 15-18.
6. XX əsrin 20-ci illərində Sovet Azərbaycanının Türkiyə ilə elm və təhsil sahəsində əlaqələri // Bakı Avrasiya Universiteti. Sivilizasiya. 2016, №3/27, s. 178-187
7. Sovet-Türkiyə qarşılıqlı münasibətlərində Azərbaycan siyasi mühacirəti amili // Azərbaycan MEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi əsərləri. 2016, Cild 60. Bakı, 2016, s. 136-148.
8. О некоторых аспектах сохздания юридической базы советско-турецких отношений в 1920-1921 годы и роли в этом Южнокавказских республик // Материалы VI Международный научно-практической конференции (Нальчик, 18-21 мая 2016 г.). Нальчик-Ростов-на-Дону, 2016, с. 310-316.

**Yagut Farahim gizi Amirova**

## AZERBAIJAN SSR-TURKISH RELATIONS (20 years of XX century)

## SUMMARY

The thesis consists of an introduction, four chapters, paragraphs 8, conclusions, list of sources used and literature.

In the introduction, the thesis proved the relevance of the theme, the choice of chronological boundaries, thoroughly analyzed the source base and historiography of the problem, to define the purpose and objectives, the practical importance of research and innovation.

In the first chapter, entitled "Azerbaijani-Turkish political and diplomatic relations (1920-1922 years)" Consisting of two paragraphs, on the basis of a large number of sources, describes the formation and development of relations between the Soviet Azerbaijan and the Turkish Grand National Assembly after the April occupation of Azerbaijan Soviet Russia, but also highlights the problem of territorial integrity of Azerbaijan in the context of diplomatic and political relations between Soviet Russia and Turkey.

In the second chapter "in relations between Azerbaijan SSR USSR-Turkey (1922-1929 years)" Thesis, consisting of two sections, explores the issues of participation of the Azerbaijani SSR in the mutual relations of the Soviet state with the Republic of Turkey and highlights the impact factor of the Azerbaijani political emigration in the Soviet-Turkish Turkish bilateral relations.

In the third chapter of "Azerbaijan SSR in the economic relations between the USSR and the Republic of Turkey", consisting of two sections. It covers material and moral assistance to Turkey in Azerbaijan in the struggle for independence, and the location of the Azerbaijan SSR in the Soviet-Turkish economic relations.

In the fourth chapter, "The relationship of Soviet Azerbaijan with Turkey in the field of culture, science and education", consisting of two sections. It highlights the cultural ties between the Soviet Azerbaijan and Turkey, as well as relations in the field of science and education.

In conclusion, compiled and summarized the main findings and conclusions of the thesis.

**Ягут Фарахим гызы Амирова**

# ВЗАИМООТНОШЕНИЯ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ ССР И ТУРЦИЕЙ (20-е годы XX века)

## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, четырех глав, 8 параграфов, заключения, списка использованных источников и литературы.

Во введении диссертации обоснованы актуальность темы, выбор хронологических рубежей, обстоятельно проанализированы источниковая база и историография проблемы, определены цели и задачи, практическая значимость и новшества исследования.

В первой главе **диссертации**, озаглавленной «Азербайджано-турецкие политико-дипломатические отношения (1920-1922 гг.)», состоящей из двух параграфов, на основе большого количества источников, описывается становление и развитие отношений между Советским Азербайджаном и правительством Великого Национального Собрания Турции после апрельской оккупации Азербайджана Советской Россией, а также освещаются проблемы территориальной целостности Азербайджана в контексте дипломатических и политических отношений между Советской Россией и Турцией.

Во второй главе диссертации «Азербайджанская ССР в отношениях СССР-Турция (1922-1929 гг.)», состоящей из двух параграфов, исследуются вопросы участия Азербайджанской ССР во взаимоотношениях Советского государства с Турецкой Республикой и освещено влияние фактора Азербайджанской политической эмиграции в Турции на советско-турецкие двусторонние отношения.

В третьей главе диссертации «Азербайджанская ССР в экономических отношениях между СССР и Турецкой Республикой», состоящей из двух параграфов, освещается материальная и моральная помощь Азербайджана Турции в борьбе за независимость, а также место Азербайджанской ССР в советско-турецких экономических отношениях.

В четвертой главе диссертации «Отношения Советского Азербайджана с Турцией в области культуры, науки и образования», состоящей из двух параграфов, освещаются культурные связи между Советским Азербайджаном и Турцией, а также отношения в области науки и образования.

В заключении работы обобщены и подытожены основные результаты и выводы диссертационной работы.

Əla növ kağız, formatı 60x84 – $^{1}/_{16}$
Tirajı 100 nüsxə
“Turxan” NPM

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ имени А.А. БАКИХАНОВА**

*На правах рукописи*

**Ягут Фарахим гызы Амирова**

# ВЗАИМООТНОШЕНИЯ МЕЖДУ АЗЕРБАЙДЖАНСКОЙ ССР И ТУРЦИЕЙ (20-е годы XX века)

**Специальность: 5503.02 – «Отечественная история»**

# А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по истории**

**БАКУ – 2017**